# AZƏRBAYCANDA ƏDƏBİYYATŞÜNASLIĞA DAİR SƏNƏD-İNFORMASİYA RESURSU

**_Sima Paşa qızı İsmayılova_**

_Pedaqogika üzrə fəlsəf doktoru, dosent_
_BDU Sənəd menecmenti kafedrası_
_simaismayilova375@gmail.com_
_Orcid: 0000-0002-9275-4269_

**_Açar sözlər:_** _Azərbaycan, ədəbiyyatşünaslıq, sənəd, informasiya, təminat._

**_Ключевые слова:_** _Азербайджан, литературоведение, документ, информация, положение_

**_Keywords:_** _Azerbaijan, literary studies, document, information, provision_

**Xülasə:** Əsrlərin sınağından çıxmış Azərbaycan ədəbiyyatı bu gün qalib və müstəqil dövlətimizin formalaşmasında fəal iştirakçı olan sağlam əqidəli və mənəviyyatlı insanların yetişdirilməsində çox mühüm əhəmiyyət kəsb edir. Bu proseslərə səmərəli təsir göstərən amillərdən biri ədəbiyyatşünaslığın sənəd-informasiya sistemidir. Ədəbiyyatşünaslığın sənəd-informasiya sistemi bir tərəfdən cəmiyyətdə bədii əsərlərin təbliğində və tələbatçıların bu sahədə mütaliə mədəniyyətinin formalaşmasına səmərəli təsir göstərir, digər tərəfdən ədəbiyyatşünaslıq tədqiqatlarının sənəd - informasiya təminatında fəal iştirak edir.Məqalədə Azərbaycan ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi-tənqidə həsr edilmiş əsərlər,bu əsərlərin ideya-məzmun əlamətləri, nəşr tarixi, ədəbiyyatşünaslığa həsr edilmiş elmi-tənqidi əsərləri əks etdirən monoqrafik əsərlər, dərslik və dərs vəsaitləri haqqında ətraflı məlumat verilmişdir. Ədəbiyyat tarixinə həsr edilmiş əsərlərdə milli ədəbiyyatımızın tarixi qaynaqları, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti, ədəbiyyat tarixçiləri xalqın ədəbi-bədii yaradıcılığını faktiki mənbələrə əsaslanaraq öz əsərlərində işıqlandırmışlar. Azrbaycanda ədəbiyyatşünaslığın sənəd-informasiya resursunun zənginləşməsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və AMEA-nın Nizami adına Ədəbiyyat institutu tərəfindən tərtib edilib nəşr olunmuş elmi, əadəbi, tənqidi vəsaitlər elmin bu sahəsinin informasiya təminatındakı rolu şərh edilmişdir.

**Резюме:** Азербайджанская литература, выдержавшая испытание веками, имеет огромное значение в воспитании людей со здравыми убеждениями и нравственностью, являющихся сегодня активными участниками становления нашего победоносного и независимого государства. Одним из факторов, эффективно влияющих на эти процессы, является документно-информационная система литературоведения. Документно-информационная система литературоведения, с одной стороны, оказывает эффективное воздействие на популяризацию произведений искусства в обществе и формирование культуры чтения у потребителей данной сферы, а с другой стороны, активно участвует в документно-информационном обеспечении литературно-критических исследований. В статье дается подробная информация об истории азербайджанской литературы, теории литературы, трудах, посвященных литературной критике, идейных и содержательных особенностях этих произведений, истории издания, монографических работах, отражающих научно-критические труды, посвященные литературной критике, учебниках и учебных пособиях. В трудах, посвященных истории литературы, историческим источникам нашей национальной литературы, жизни и деятельности выдающихся деятелей, историки литературы на основе фактических источников освещали в своих произведениях литературно-художественное творчество народа. Роль научных, литературных и критических материалов, собранных и изданных Азербайджанской национальной библиотекой им. М.Ф. Ахундова и Института литературы имени Низами НАНА в обогащении

документально-информационного ресурса литературоведения в Азербайджане было отмечено в информационном обеспечении этой области науки.

**Summary:** Azerbaijani literature, which has stood the test of centuries, is of great importance in the upbringing of people with sound convictions and morals who are active participants in the formation of our victorious and independent state today. One of the factors that effectively affects these processes is the document-information system of literary studies. On the one hand, the document-information system of literary studies has an effective impact on the promotion of works of art in society and the formation of a reading culture among consumers in this field, and on the other hand, it actively participates in the document-information provision of literary studies. The article provides detailed information about the history of Azerbaijani literature, literary theory, works dedicated to literary criticism, the ideological and content features of these works, the publication history, monographic works reflecting scientific-critical works dedicated to literary studies, textbooks and teaching aids. In works dedicated to the history of literature, historical sources of our national literature, the life and activities of prominent personalities, literary historians have illuminated the literary and artistic creativity of the people in their works based on factual sources. The role of scientific, literary, and critical materials compiled and published by the Azerbaijan National Library named after M.F.Akhundov and the Nizami Institute of Literature of ANAS in the enrichment of the document-information resource of literary studies in Azerbaijan in the information provision of this field of science was commented on.

Cəmiyyətin informasiyalaşdırılmasında vacib olan informasiya vasitələri və ehtiyatları çoxcəhətlidir və dünya miqyasında, o cümlədən Azərbaycanda da daim inkişafdadır. Cəmiyyətin informasiya ehtiyatları məqsədyönlü sosial istifadə üçün sənədlər şəklində maddiləşir. Azərbaycanda ədəbiyyatşünaslıq üzrə sənəd resursunun mühüm tərkib hissəsini çox mürəkkəb struktur quruluşa malik olan ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi və ədəbi-tənqid materialları təşkil edir [3]. Ədəbiyyat nəzəriyyəsi ədəbiyyatın özünəməxsusluğunu, incəsənətin digər sahələri ilə oxşar və fərqli cəhətlərini, mahiyyətini, yaradıcılığın metod və üsullarını, ədəbi növləri, janrları, bədii əsərin quruluşunu və s. öyrənir. Ədəbiyyat nəzəriyyəsinə dair gərgin zəhmətin və çoxillik səmərəli tədqiqatların nəticəsi kimi XX əsr Azərbaycanın görkəmli yazıçısı, professor Mir Cəlalın "Ədəbiyyatşünaslığın əsasları" kitabını göstərmək olar. Bu kitab ilk dəfə 1972-ci ildə "Maarif" nəşriyyatında nəşr olunmuş, ali məktəb tələbələri, aspirantlar və ədəbiyyat müəllimləri üçün nəzərdə tutulmuşdur. 2005-ci ildə "Çaşoğlu" nəşriyyatı tərəfindən isə "Ədəbiyyatşünaslığın əsasları"nın üçüncü nəşri çap olunmuşdur. Bu kitab klassik ənənələrə və dərin elmi məntiqi əsaslara söykənir. Qeyd etməliyik ki, sonrakı illərdə nəşr edimiş yeni "Ədəbiyyat nəzəriyyəsi" dərslikləri də öz strukturu və mövzulara yanaşma prinsiplərinə görə "Ədəbiyyatşünaslığın əsasları"ndan kifayət qədər faydalanmışdır. "Ədəbiyyatşünaslığın əsasları" kitabı ədəbiyyatşünaslığın mühüm sahəsinin - ədəbiyyat nəzəriyyəsinin ayrı-ayrı problemlərinin aydın elmi şərhini verir.

"Ədəbiyyatşünaslığın əsasları" Azərbaycan ədəbi-nəzəri fikrində ədəbiyyatşünaslığın əsasları və ədəbiyyat nəzəriyyəsi fənləri üzrə ən mötəbər dərslik kimi öz vəzifəsini bu gün də yerinə yetirir. Ədəbiyyat nəzəriyyəsindən bəhs edən belə vəsaitlərdən danışarkən filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadənin çap etdirdiyi "Ədəbiyyat nəzəriyyəsi" dərsliyini də xüsusilə qeyd etmək lazımdır. Redaktorluğunu Bəkir Nəbiyevin etdiyi bu dərslik 2012-ci ildə "Proqres" nəşriyyatında çap edilmişdir. Dərslik 10 bölmə və daxili yarım bölmələrdən ibarətdir. Kitabda mövzular müqəddimə, ədəbiyyat nəzəriyyəsi elmi, tarixi və predmeti, yazıçı şəxsiyyəti və yaradıcılıq prosesi, ədəbi proses, yazıçı, tənqidçi və oxucu, bədii əsərin dili və üslub, ədəbi növlər və janrlar, şerin vəznləri bölmələrindən ibarətdir.

Ədəbiyyat tarixi bir xalqın ədəbiyyatının və ya ümumilikdə dünya xalqları ədəbiyyatının keçdiyi inkişaf dövrlərini, mərhələlərini araşdıraraq öyrənir. Ədəbiyyat tarixi xalqın tarixi ilə sıx bağlı olduğundan ədəbiyyat tarixçiləri xalqın ədəbi-bədii yaradıcılıq tarixini onun ümumi tarixinin bir tərkib hissəsi kimi tədqiq edirlər. Həmçinin ədəbiyyat tarixində söz sənətkarlarının həyat və yaradıcılığı da araşdırılıb öyrə-

nilir. Ədəbiyyat tarixini özündə əks etdirən bir çox qiymətli vəsaitlər mövcuddur. Bu vəsaitlər ədəbiyyat tarixinin öyrənilməsinə kömək məqsədilə yaradılmışdır. Belə vəsaitlər arasında "Azərbaycan ədəbiyyatı tarixi" vəsaitinin özünəməxsus yeri vardır. Filologiya elmlər doktoru Elməddin Əlibəyzadənin 2009-cu ildə "Qarabağ" nəşriyyatında çap etdirdiyi "Azərbaycan ədəbiyyatı tarixi" vəsaitinin elmi redaktorluğunu Əlyar Səfərli, Vəli Osmanlı, Məhəmmədhəsən Qənbərli etmişdir. Vəsait 828 səhifə, 7 bölmədən ibarətdir. Kitabda Azərbaycan türk ədəbiyyatının təşəkkülü və formalaşması tarixinin ən qədim dövrləri tədqiqata cəlb olunur, həmçinin dinin mənşəyi, yazının kəşfi məsələləri, izahı burada əks olunur. Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisi Firidun bəy Köçərlinin müəllifi olduğu "Azərbaycan ədəbiyyatı" kitabı isə 2005-ci ildə "Avrasiya Press" nəşriyyatı tərəfindən 2 cilddə çap olunmuşdur [4].

Azərbaycan ədəbiyyatşünaslığı öz əksini Azərbaycan ədəbiyyatının tarixi, nəzəri problemləri, ayrı-ayrı ədiblərin yaradıcılıq yoluna həsr olunmuş sanballı monoqrafaiyalarda, məqalə, resenziya, qeydlər, müxtəlif elmi-tənqidi yazılarda tapır. Bu illərdə ədiblərimizin əsərlərinin bir qismi çoxcildli külliyyatlar, antologiyalar, seçilmiş əsərlər şəklində yenidən buraxılmışdır. Belə nəşrlərə Abbas Səhhətin əsərlərinin 7 cildliyini, Rəsul Rzanın əsərlərinin 5 cildliyini misal göstərmək olar. Ədəbiyyatşünaslığın sənəd bazasının mühüm tərkib hissəsini sahə üzrə müvafiq nəşrlər təşkil edir. Belə nəşrlərin meydana gəlib dərc edilməsində AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşlarının əvəzsiz rolu vardır. Həmin nəşrlərə misal olaraq Fəxrəddin Yadigarın (Veysəlli) "Mirzə Şəfi Vazeh və Bodenştedt:Yazmalar və faktlar" (2010) adlı kitabını göstərə bilərik. Əsərdə Mirzə Şəfi və Fridrix Bodenşdetin əlaqələri geniş şərh olunur [5].

Ədəbi tənqid isə çağdaş yəni müasir ədəbi proseslə məşğul olur. Bundan başqa Filologiya üzrə fəlsəfə doktoru Yədulla Dadaşlının 2019-cu il "Elm və təhsil" nəşriyyatında çap etdirdiyi "Azərbaycan ədəbi tənqidinin tarixi (sovet dövrü)" dərsliyi ədəbi tənqid tarixində çox mühüm əhəmiyyət kəsb edir. Ədəbi tənqid sahəsində fəaliyyət göstərən filologiya elmləri doktoru, professor Vaqif Sultanlının ədəbi tənqid və ədəbiyyatşünaslığa dair axtarışları müxtəlif illərdə çap olunmuş müxtəlif məzmunlu kitablarında əksini tapmışdır. Onun 2019-cu ildə "Nurlan" nəşriyyatında çap etdirdiyi "Azərbaycan ədəbi tənqidi" kitabının təkmilləşdirilmiş 3-cü nəşri bu istiqamətdə görülən işlərin davamı olub, əvvəlki nəşrlərdən sistemliliyi ilə seçilir.

Respublikamızda ədəbiyyatşünaslığın sənəd-informasiya resursunun zənginləşməsində M.F.Axundov adınma Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib edilib nəşr olunmuş "Mədəniyyət, İncəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat" adlı cari biblioqrafik informasiya göstəricisi xüsusilə zəngin mənbədir. Bu nəşr 2022-ci ildə kitabxananın "Analitik biblioqrafik resursların yaradılması" şöbəsi tərəfindən tərtib edilmişdir. Vəsaitin IV bölməsi "Ədəbiyyatşünaslıq" başlığı ilə "Nizami Gəncəvi ili - 2021", "Xurşidbanu Natavan - 190", "Mirzə Ələkbər - 160", "Əhməd Cavad - 130" və s. yarım başlıqlarda müvafiq sənəd kütləsinin biblioqrafik siyahısı verilmişdir [6].

Azərbaycan ədəbiyyatşünaslığının sənəd - informasiya bazası özündə ədəbi prosesin inkişaf etdirilməsinin elmi-nəzəri əsaslarını əks etdirməklə ədəbi həyata fəal müdaxilə etmiş, Azərbaycanda ədəbi fikrin elmi-nəzəri səviyyəsinin və ədəbiyyatşünasların peşə səviyyəsinin yüksəlişində, geniş tələbatçı qruplarının bədii estetik dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

**Ədəbiyyat**


1. Azərbaycan yazıçıları birliyi aylıq ədəbi-bədii orqanı.- B.: Azərbaycan Nəşriyyatı, 2003.-192 s.
2. Azərbaycan ədəbiyyatı tarixi /Altı cilddə.-B., 2009.- 185 s.
3. *İsmayılova S.P.* Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi.-B.: BUN,2008.-66 s.
4. *Köçərli F.*Azərbaycan ədəbiyyatı.II cild.-B,:"Avrasiya Press", 2005.- 464 s.
5. Yadigar Fəxrəddin. "Mirzə Şəfi Vazeh və Bodenştedt".- B.: Təhsil NPM, 2010.-156 s.
6. Mədəniyyət, incəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat. Cari biblioqrafik informasiya göstəricisi:May-2022.-B., 2022.-120 s.